**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**02.03.2022-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol № 5**

***İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:***

I. 1. İctimai səhiyyə fakültəsi kafedralarında elmi-tədqiqat işlərinin nəticələri barədə prof. İ.Ağayevin hesabatı qənaətbəxş hesab edilsin;

2. ATU-nun Yoluxucu xəstəliklər kafedrasının müdiri, dosent C.İsayevin kafedranın illik fəaliyyəti barədə hesabatı qənaətbəxş hesab edilsin;

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Tədris olunan fənlər üzrə aralıq qiymətləndirmə testləri 10.03.2022 tarixinə kimi İM-nə təqdim olunsun;

2. Kollokvum qiymətlərinin vaxtında yazılmasına nəzarət gücləndirilsin;

3. Kafedralarda yerinə yetirilən elmi-tədqiqat işlərinin vəziyyətinə və dinamikasına nəzarət edilsin;

4. Kafedralarda elmi-tədqiqat işi aparan əməkdaşlarla, eləcə də onların elmi rəhbərləri və ya elmi məsləhətçiləri ilə mütəmadi olaraq müzakirələr aparılsın;

III. Problem komissiyaların sədrlərinə tapşırılsın ki:

1. Kafedralarda yerinə yetirilən elmi-tədqiqat işlərinin vəziyyəti (icra müddəti, yerinə yetirilmə mərhələsi, dərc olunmuş nəşrlər, yaranan çətinliklər və s.) barədə məlumatlı olsunlar;

2. Kafedralarda elmi-tədqiqat işi aparan əməkdaşların (doktorant və dissertantların) illik hesabatları müzakirə olunaraq iclasın protokolunun çıxarışı dekanlığa təqdim olunsun.

IV. Dekanlığa tapşırılsın ki, nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarəti gücləndirsin.

Sədr: prof. A.Ə.Ağayev

Elmi katib: dos. Y.H.Hacıyeva